Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: mart 2026

# Şans kartı (§§20a + 20b AufenthG) - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.
“Şans kartı” üçün milli viza almaqdan ötrü bütün lazımi sənədləri **Almaniyanın federal Xarici İşlər Nazirliyinin internet portalına** göndərməklə onlayn şəkildə müraciət etmək olar. Səfirlik onlayn-prosesi çərçivəsində kənar viza xidməti olan TLScontact şirkəti ilə işləyir. Almaniyanın Federal Xarici İşlər Nazirliyinin internet portal istefadəçi hesabına əlavə olaraq göstərilən linkdən TLScontact platformasında da istifadəçi hesabı yaradın: https://visas-de.tlscontact.com/en-us/registration?issuerId=azBAK2de. TLScontact şirkəti sənədlərinizin tamlığını onlayn şəkildə yoxlayır. Bütün sənədlər hazır olduqda, Sizin üçün ən yaxın viza dəstəyi üçün xidmət şirkətində (VXŞ) görüş təyin olunacaqdır. Orada barmaq iziniz alınacaq və Siz viza rüsumunu da ödəyəcəksiniz. Bundan sonra ərizəniz Almaniya Səfirliyinə göndəriləcək. Viza müraciətinizlə bağlı qərar viza xidməti şirkəti tərəfindən deyil, səfirlik tərəfindən verilir. İstənilən vaxt internet portal vasitəsilə ərizənizin işlənmə mərhələsini izləyə bilərsiniz. İnternat portal vasitəsi ilə müraciət etmək üçün bu keçiddən istifadə edə bilərsiniz: : https://digital.diplo.de/chancenkarte

**Sənədlərin işlənmə müddəti orta hesabla 2-4 həftə,** bəzi hallarda isə daha uzun müddət davam edir.
Viza şöbəsi əlavə sənədləri tələb etmək hüququa malikdir. Natamam ərizələr prosesi gecikdirir və rədd cavabı ilə nəticələnə bilər. Buna görə də, xahiş edirik ki, ərizəni tam, yəni bütün lazımi sənədlərlə birlikdə təqdim etməyə çalışın.

| Ümumi məlumatlar |
|---|
| “Şans kartı” Almaniyada tənzimlənən qaydada iş axtarışına imkan yaratmaq üçün Almaniyanın “Yaşamaq haqqında Qanun”unda nəzərdə tutulmuş hüquqi əsasdır. “Şans kartı” iş axtarışı ilə yanaşı, Almaniyada xarici peşə diplomlarının tanınması üçün imkanlar açır.<br><br>“Şans kartı” iki yolla əldə edilə bilər:<br>- Xarici diplomun tam ekvivalentliyini sübut edə bilən və buna görə də “mütəxəssis” hesab edilən üçüncü ölkə vətəndaşları kifayət qədər yaşayış vasitələrinə malik olduqlarını sübut edə bildikləri təqdirdə “Şans kartı”nı ala bilərlər.<br><br>- Bütün digər ərizəçilər xarici universitet diplomu, ən azı iki illik peşə təhsili haqqında diplom (hər biri təhsilin keçirildiyi ölkədə dövlət tərəfindən tanınan) və ya Almaniyanın Xarici Ticarət Palatası tərəfindən verilmiş peşə təhsili haqqında diplomu təqdim etməlidirlər. Bundan başqa ya sadə alman dili biliyi (A1 dil səviyyəsi) və ya ingilis dili biliyi (B2 dil səviyyəsi) tələb olunur. Əgər bu tələblər yerinə yetirilibsə, Siz Almaniyada ixtisasın tanınması, dil bilikləri, peşə təcrübəsi, yaş və Almaniya ilə bağlılıq, eləcə də Sizinlə birlikdə Almaniyaya gedəcək həyat yoldaşının olması kimi meyarlar üçün müxtəlif ballar toplaya bilərsiniz. “Şans kartı” əldə etmək üçün ən azı 6 bal toplamaq lazımdır.<br><br>“Şans kartı” yaşayış xərclərini ödəmək iqtidarında olduğu halda maksimum 1 il müddətinə verilir. “Şans kartı” Almaniyada olduğunuz müddətdə sınaq işi və ya həftədə 20 saatlıq istənilən sahədə əlavə iş imkanı verir.<br><br>“Şans kartı” (xüsusilə də “Self-Check-özünü yoxlama”) haqqında əlavə məlumatı, o cümlədən Almaniyada işləmək və yaşamaq haqqında ümumi məlumatı 'Make it in Germany' bölməsindən əldə |

edə bilərsiniz.

| Viza ərizəsi üçün sənədlərin siyahısı<br>Hər bir müraciət üçün aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
| --- |
| ☐ Xarici pasport - ən azı 2 boş səhifəsi olmaqla (xarici pasportun şəkil olan səhifəsi və əvvəlki vizalar, möhürlər və qeydlər olan səhifələrin 1ədəd surəti) |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya Azərbaycan vətəndaşlığı olmayan şəxslər üçün etibarlı olan " Azərbaycanda yaşamaq icazəsi " sənədi *(əsli + 1 ədəd surəti)* |
| ☐ 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı) |
| ☐ Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax) |
| ☐ Motivasiya məktubu: Almaniyada hansı iş sahələri və iş yerləri ilə maraqlandığınız, haraya müraciət etmək istədiyiniz və Almaniyada harada yaşamaq istədiyiniz aydın olmalıdır (yaşayış yeri və digər yaşayış xərcləri haqqında məlumat daxil olmaqla). Əgər Siz xarici təhsilinizi Almaniyada tanıtmaq üçün tədbirlər görməyi nəzərdə tutursunuzsa, bu barədə məlumatı qeyd edin. |
| ☐ Peşə fəaliyyəti barədə cədvəl şəklində tərcümeyi-hal |
| ☐ Almaniyaya daxil olarkən qalacağınız ilk ünvan haqqında təsdiq sənədi |

| **Maliyyələşdirmə:** Almaniyada yaşayış xərclərinizi ödəyə biləcəyinizi öz maliyyə vəsaitləriniz və ya rəsmi öhdəlik bəyannaməsi ilə sübut edə bilərsiniz. Bundan əlavə "Şans kartı" çərçivəsində əmək müqaviləsi ilə təsdiq olunmuş əlavə iş də nəzərə alına bilər. Xahiş olunur belə bir işiniz olduğu təqdirdə bu barədə aşağıdakıları uyğun olaraq məlumat verin: |
| --- |
| ☐ Dondurulmuş bank hesabı: 13.091 avro məbləğində depozitinin təsdiqi. Hər ay bu məbləğdən yalnız 1.091 avro istifadə oluna bilər. |
| ☐ Əlavə iş: Əgər Sizin Almaniyada artıq dəqiq əlavə iş yeriniz varsa, bu halda Siz əmək müqaviləniz və ya dəqiq iş yeri təklifinizin olduğunu sübut etməlisiniz. Hər ikisində həftəlik iş saatları və aylıq əmək haqqınız haqqında məlumat olmalıdır. |
| ☐ Öhdəlik haqqında bəyannamə: Almaniyada „Yaşamaq haqqında Qanunun" 66-68 §§-da qeyd olunmuş öhdəlik haqqında rəsmi bəyanatın, öhdəliyə götürən şəxsin maliyyələşdirmə iqtidarında olmasının sənəd ilə sübutu (6 aydan köhnə olmamaqla, səfərin məqsədi: „Şans kartı" göstərilməklə öhdəliyə götürən şəxs ödəmə qabiliyyətini sənədlə təsdiq etməlidir!) *(əsli + 1 ədəd surəti).* |

☐ **Özəl tibbi sığorta** (əsasən 'Incoming-Versicherung' adlanır). Bu sığorta bütün Şengen ölkələri üçün etibarlı olmalı və sığorta ödənişinin minimal məbləği 30.000 € olmaqla „Şans kartı"nın etibarlılıq müddətində (əsasən 1 il) qüvvədə qalmalıdır.

Sizin alman peşə təhsiliniz və ya alman ali təhsiliniz varmı? Yaxud xaricdə aldığınız və Almaniyada tanınan peşə və ya ali təhsiliniz varmı? O zaman Siz „Yaşayış Qanunu"nun 18 -ci bəndinin III hissəsinə əsasən **"mütəxəssis"** sayılırsınız və bu halda „Şans kartı" almaq üçün bal qazanmağa ehtiyac yoxdur. Xahiş olunur, mütəxəssis kimi ixtisasınızı təsdiq edən sənədləri təqdim edəsiniz:

☐ Almaniyada verilən peşə təhsili haqqında diplom (*əsli + 1 ədəd surəti*)

YAXUD

☐ Almaniyada verilən ali təhsil haqqında diplom (*əsli + 1 ədəd surəti*)

YAXUD

☐ Xarici peşə təhsilinin alman peşə təhsilinə ekvivalentliyinin müvafiq səlahiyyətli idarə tərəfindən tanınması (*əsli +1 ədəd surəti*)

YAXUD

☐ Xarici ali təhsilin alman ali təhsilinə ekvivalentliyinin tanınması (anabin-Datenbank məlumat bazasından çıxarış)

YAXUD (əgər *universitet diplomu anabin məlumat bazasında "entspricht" və ya "gleichwertig" kimi qeyd edilməyibsə və/və ya universitet "H+" kimi qiymətləndirilməyibsə)*

☐ 'Zentralstelle für ausländisches Bildungswesen' ZAB tərəfindən diplomların qiymətləndirilməsi *(əsli + 1 ədəd surəti)*

YAXUD *(həkim, mühəndis kimi lisenziya tələb edən nizamlanan peşələr; tam siyahı burada: Bundesagentur für Arbeit yaxud EU-Kommission)*

☐ Diplomların tanınması üçün cavabdeh idarə tərəfindən verilən peşə icazəsi və ya peşə icazəsinin verilməsinə dair zəmanət – məsələn, tibb peşələri üçün: federal torpaqda həkimlərin lisenziyası üçün cavabdeh idarənin qərarı, yəni peşə icazəsi üçün məsul idarə tərəfindən peşə icazəsinin verilməsinə dair zəmanət və ya həkim lisenziyasının verilməsi *(əsli +1 ədəd surəti*)

*Diplomların tanınmasına dair məlumatı buradan əldə edə bilərsiniz:* www.anerkennung-in-deutschland.de .

Əgər Siz **mütəxəssis** deyilsinizsə (bax: izahi yuxarıda), Siz aşağıdakı tələblərə cavab verməli və müvafiq sübutlar təqdim etməlisiniz:

☐ Xarici peşə təhsili haqqında diplom (*apostil və alman dilinə tərcüməsi ilə birlikdə əsli + 1 ədəd surəti*) HABELƏ

☐ Xarici peşə ixtisasınız haqqında „Zentralstelle für ausländisches Bildungswesen" idarəsi tərəfindən verilən arayış *(əsli +1 ədəd surəti)*(dövlət tərəfindən tanınması, əz azı 2 il peşə təhsilinin müddəti) YAXUD

☐ İxtisasın qismən tanınmasına dair bildiriş/peşə kvalifikasiyasının çatışmamazlığına dair bildiriş *(əsli + 1 ədəd surəti*)

YAXUD

☐ Xarici ali təhsil haqqında diplom *(apostil və alman dilinə tərcüməsi ilə birlikdə əsli + 1 ədəd surəti*) HABELƏ

Dövlət tərəfindən alı təhsil diplomunun tanınmasına dair təsdiq: YA

☐ Alman ali təhsilinə bərabər tutulması barədə diplomun (şərti) tanınması (anabin-Datenbank məlumat bazasından diplomunuz və ali məktəbiniz haqqında çıxarış)

YA DA (əgər *universitet diplomu anabin məlumat bazasında "entspricht" və ya "gleichwertig" kimi qeyd edilməyibsə və/və ya universitet "H+" kimi qiymətləndirilməyibsə)*

☐ 'Zentralstelle für ausländisches Bildungswesen' tərəfindən diplomların qiymətləndirilməsi *(əsli + surəti)*

☐ YA DA

☐ Xaricdəki Alman Ticarət Palatasının peşə təsili haqqında diplomu və diploma aid 'Bundesinstituts für Berufsbildung' idarəsinin təsdiqi (*əsli +1 ədəd surəti*)

**Dil bilikləri**:

☐ *Alman dili biliklərinizi* təsdiq edən sertifikat (*əsli + 1 ədəd surəti*) – ən azı A1 səviyyəsində

☐ VƏ/YAXUD

☐ *İngilis dili biliklərinizi* təsdiq edən sertifikat *(əsli + 1 ədəd surəti)* – ən azı B2 siviyyəsində! Sertifikatı verən tərəf 'Association of Language Testers in Europe' (ALTE) tərəfindən sertifikatlaşdırılmalıdır; alternativ olaraq 'Test of English as a Foreign Language' (TOEFL) sertifikatı da qəbul edilir.

**Qeyd: Yuxarıda göstərilən sənədlər "Şans kartı"nın ballarının hesablanması üçün də aktualdır! Alman və ingilis dilləri üzrə müəyyən bilik səviyyələri üçün, həmçinin xarici peşə ixtisaslarınızın qismən tanınması üçün bal ala bilərsiniz.**

Siz, həmçinin aşağıdakı sənədlərlə **„Şans kartı" üçün bal** toplaya bilərsiniz (əldə edilə bilən ballar haqqında təfərrüatları 'Make it in Germany' " bölməsində tapa bilərsiniz):

☐ Son 5 və ya 7 il ərzində peşə sahəsində təcrübənizin təsdiqi: iş yerindən arayış, işəgötürən tərəfindən verilən xasiyyətnamə və s. (*əsli + 1 ədəd surəti*)

☐ Əgər Siz son 5 il ərzində ən azı 6 ay fasiləsiz olaraq Almaniyada qanuni yaşamışsınızsa (Şengen vizası ilə qısamüddətli yaşayış nəzərə alınmır!), bunu müvafiq sənədlərlə təsdiq edin, məsələn:
- qüvvədə olan kirayə müqaviləsi
- əmək fəaliyyəti, xidməti müqavilələr və s.
- viza və giriş möhürləri olan pasport

☐ Sizin həyat yoldaşınız da "Şans kartı" üçün müraciət etmək – və ya artıq müraciət edib – və sonra Sizinlə birlikdə Almaniyaya daxil olmaq istəyir? Bu halda Sizdən biriniz "Şans kartı" üçün əlavə 1 bal toplaya bilərsiniz. Bunun üçün həyat yoldaşınızın "Şans kartı" ərizəsi yaxud "Şans kartı"nın təsdiqini təqdim etməlisiniz.